AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ (UNEC)**

**FAKÜLTƏ: İQTİSADİYYAT VƏ İDARƏETMƏ**

**Təsdiq edirəm:**
**“İctimai idarəetmə və sosial innovasiyalar”**
**kafedrasının müdiri i.ü.f.d., dos. E. Q. Məmmədov**
**(Protokol №)**

# “SOSİAL SAHƏLƏRİN İQTİSADİYYATI” FƏNNİ ÜZRƏ

# İŞÇİ TƏDRİS PROQRAMI

## (S İ L L A B U S)

## FƏNN HAQQINDA MƏLUMAT

| | |
|---|---|
| **Fənnin kodu:** | **00821** |
| **Fənnin növü:** | **Seçmə** |
| **Tədris ili:** | **---** |
| **Fənnin tədris semestri:** | **Payız / Yaz** |
| **Fənnin tədris forması:** | **Əyani** |
| **Tədris dili:** | **Azərbaycan** |
| **Fakültə:** | **İqtisadiyyat və idarəetmə** |
| **Qrup:** | **---** |
| **Kafedra:** | **“İctimai idarəetmə və sosial innovasiyalar”** |
| **Tədris yükü:** | **---** |

**Kredit sayı:** **6**

## MÜƏLLİM HAQQINDA MƏLUMAT

**Fənni tədris edən müəllim:** **----**

**E-mail ünvan:** **----**

**İş telefonu:** **----**

**Tələbələr üçün qəbul vaxtları:** **----**

## FƏNNİN TƏSVİRİ

Sosial sfera sosial proses subyektlərinin durmadan təkrar istehsalı zərurətindən doğan obyektiv tələbatın yaratdığı, cəmiyyətə məxsus bütöv, daim dəyişməkdə olan bir altsistemdir. Sosial sfera insanın öz həyatını təkrar istehsal edən fəaliyyət sahəsi, sosial funksiyasını həyata keçirən fazasıdır. Onun fəaliyyət göstərməsi obyektiv qanunlarla müəyyənləşdirilir və sosial idarəçiliyin müəyyən prinsiplərinə əsaslanır. Sosial sahənin inkişaf səviyyəsi insanın formalaşmasına və əmək məhsuldarlığına çox böyük təsir göstərir. Makrosəviyyədə istehsal və sosial infrastrukturları bir-biridən fərqləndirmək lazımdır. İstehsal infrastrukturu istehsala xidmət edir. Sosial infrastruktur isə əhali və onun inkişafına istiqamətlənən sahələri özündə birləşdirir. İqtisadiyyatın qeyri-iqtisadi sahəsi olan xidmət sahələri özündə qeyri-maddi və qeyri-maddi mənəvi nemətlər istehsalı birləşdirir.

## FƏNNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ

Fənnin əsas məqsədi kimi sosial sahələrdə mövcud problemlərin tədqiqi və onların həlli istiqamətlərinin müəyyən edilməsi aiddir. Sosial sahələrin iqtisadiyyatı fənninin müstəqil elmi fənn kimi formalaşması yalnız təhsil, səhiyyə, mənzil, məişət və digər sosial xidmətlərin təkmilləşdirilməsi ilə deyil, eyni zamanda geniş sosial-iqtisadi əlaqələrin mövcudluğu ilə əlaqədardır ki, bu da müxtəlif sosial sahələrə iqtisadi resursların cəlb edilməsini tələb edir. Sosial sahələrin iqtisadiyyatı fənninin predmeti sosial sahələrdə idarəetmə, planlaşdırma, maliyyələşdirmə, əməyin ödənilməsi, təşkilati strukturlarla əlaqəli nəzəri və praktiki problemlərin tədqiqidir. Bu fənnin predmetini bu sahəyə məxsus qanun və qanunauyğunluqların açılması təşkil edir. Sosial sahələrin iqtisadiyyatı fənninin obyekti əhaliyə müxtəlif xidmətlər təklif edən sosial mədəni sahələrdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- Sosial xidmətlərlə yanaşı maddi-istehsal sahələrində yaranan xidmətlər barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- Sosial sferada əmək prosesinin maddi istehsalla müqayisədə fərqli cəhətlərini tələbələrə təqdim etmək:
- Sosial sahələr maddi istehsalla müqayisədə daha yüksək əməktutumluluğu ilə fərqlənməsini izah etmək:
- Xidmətlərin pullu, güzəştli və pulsuz xidmətlərə bölgüsünü təsnifləşdirmək:
- Sosial sferanın müəssisə və idarələrinin geniş əraziyə səpələnməsinin xarakteristikası və əhalinin bu obyektlərə gəlməsini geniş surətdə təmin edilməsinin zəruriliyi barədə məlumatlandırma.

## FƏNNİN TƏDRİS METODOLOGİYASI

Fənnin tədrisi zamanı tələbələr sosial idarəetmə sahəsində nəzəriyyələr və təcrübə ilə bağlı bir sıra məsələlərlə yaxından tanış olacaqlar. Fənnin əhatə dairəsinə sosial proseslərin keyslər üzərində tətbiqi mövzuları daxildir. Sosial sferanın iqtisadiyyatı fənnin tədrisi sosial fəaliyyətin mərhələləri, davranış dəyişikliyinin mərhələləri, bir sıra sosial bacarıqlar, o cümlədən motivasiyalı intervyu, onun əsas prinsipləri, mərhələləri və sosial proseslərdə fəndlərin müəyyənləşdirilməsi kimi mövzuları ehtiva edir. Kursu başa vuran tələbələr sosial işin nəzəriyyələri və təcrübəsi sahəsində vacib olan məlumatlar əldə edərək, biliklərin keyslər üzərində tətbiqi vasitəsilə motivasiyalı intervyu, parafrazetmə, hisslərin əks olunması, aydınlaşdırma və ümumiləşdirmə və sosial işçi üçün vacib olan digər əsas bacarıqlara yiyələnərək mikro sosial iş prosesində əhalidə arzuolunan davranış dəyişikliyi istiqamətində ünsiyyət yaratmaq imkanı əldə etməklə, sosial iş təcrübəsi zamanı əhalinin müqavimətinin aradan qaldırılması, onun sosial proseslərə uğurlu cəlb edilməsi qaydalarını mənimsəyirlər.

## ÖYRƏNMƏNİN NƏTİCƏLƏRİ

Fənni mənimsədikdən sonra tələbə aşağıdakı səriştə və bacarıqlara malik olur:

***Tələbələr bilməlidirlər:***

- Sosial sahələrin idarəetmə mexanizmlərini;
- Əhali tələbatı və istehlakının idarə edilməsi prinsiplərini;
- Sosial siyasət və onun fəaliyyət istiqamətlərini;
- Sosial sığorta iqtisadiyyatının əsas prinsiplərini;
- İqtisadiyyatın qeyri-kommersiya sektorunun müasir fəaliyyət göstəricilərini;
- Xidmət sferasının iqtisadiyyatı və idarə edilməsi istiqamətlərini;

- Təhsil və elmin iqtisadiyyatı göstəricilərini;
- Səhiyyənin iqtisadiyyatı və idarə edilməsi göstəricilərini;
- Kulturologiya və rekreasiya təsərrüfatının idarəetmə prinsiplərini;
- Turizmin iqtisadiyyatı və idarə edilməsi xüsusiyyətlərini.

***Tələbələr bacarmalıdırlar:***

- İqtisadiyyatda, sosial sahədə, mənəvi həyatda və hər bir sahədə bir sözlə ictimai həyatın müxtəlif sahələrində fəaliyyət sistemini tənzimləmək;
- Siyasi kursun reallaşdırılması və siyasi məqsədlərə nail olmaq üçün praktiki fəaliyyət proqramlarının hazırlanmasını təmin etmək;
- İnsanlarla işləmək qabiliyyəti onların maraqları, imkanları, psixoloji, peşə və sair keyfiyyətləri nəzərə almaq və müdafiə etmək bacarığına nalik olmaq;
- Vətəndaşların, siyasi xadimlərin, ictimai təşkilatların hakimiyyət münasibətlərində iştirak;
- Hakimiyyətin qorunması və möhkəmləndirilməsi məqsədilə müxtəlif sosial qruplar, siniflər, dövlət arasında olan münasibətləri dərindən təhlil etmək.

## PREREKVİZİTLƏR:

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## FƏNNİN MÜHAZİRƏ MÖVZULARI

Fənn 15 mühazirə mövzusundan ibarətdir. 15 mövzunun hər birinə 4 saat (2 saat mühazirə və 2 saat seminar-məşğələ olmaqla) vaxt ayrılır.

**Mövzu 1.** Sosial sfera və onun inkişaf amilləri.
**Mövzu 2.** Sosial sahələrin resurs potensialı.
**Mövzu 3.** Sosial inkişafın dövlət tənzimlənməsi
**Mövzu 4.** Sosial sahələrin idarəetmə mexanizmləri
**Mövzu 5.** Əhali tələbatı və istehlakının idarə edilməsi
**Mövzu 6.** Sosial siyasət və onun fəaliyyət dairəsi
**Mövzu 7.** Əhalinin sosial müdafiəsi sistemi
**Mövzu 8.** Sosial sığorta iqtisadiyyatı
**Mövzu 9.** İqtisadiyyatın qeyri – kommersiya sektoru
**Mövzu 10.** Sosial sferada sahibkarlıq fəaliyyəti
**Mövzu 11.** Xidmət sferasının iqtisadiyyatı və idarə edilməsi
**Mövzu 12.** Təhsil və elmin iqtisadiyyatı
**Mövzu 13.** Səhiyyənin iqtisadiyyatı və idarə edilməsi
**Mövzu 14.** Kulturologiya və rekreasiya təsərrüfatının idarə edilməsi
**Mövzu 15.** Turizmin iqtisadiyyatı və idarə edilməsi

## FƏNNİN MÜHAZİRƏ MƏTNLƏRİ

Fənn üzrə bütün mühazirə mətnləri, təqdimatlar, müzakirə sualları və tapşırıqlar elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.unec.edu.az), müəllimin şəxsi kabinetində yerləşdirilmişdir.

## MÖVZULARIN MƏZMUNU VƏ TƏDRİS-TEMATİK BÖLGÜSÜ

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat sıyahısı |
|---|---|---|---|
| **1.** | Sosial sfera və onun inkişaf amilləri | İqtisadiyyatın maddi istehsal və sosial sektora bölgü meyarı; Cəmiyyətin sosial sferası və sosial struktur anlayışı; Sosial sferanın mahiyyəti və təsnifatı; Sosial sferanın xarakterik xüsusiyyətləri | 1. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı , 2010. 326 səh.<br>2. Rəhmanov F.P. Sosial sfera keçid iqtisadiyyatı şəraitində. Bakı: «Gənclik», 2002.<br>3. Abdullayeva R.S., Muradov A.N. "Sosial sferanın iqtisadiyyatı". Dərs vəsaiti. Bakı, 2009. 237 səh.<br>4. Vahidov F.Q., Ağayev T.B. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: «Təknur» nəşriyyatı, 2008, 334 s.<br>5.H.B.Allahverdiyev, Ə.M.Əhmədov, K.S.Qafarov "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi" Dərslik, Bakı-2012, səh: 377-379. |
| **2.** | Sosial sahələrin resurs potensialı | Sosial sahələrin resurs potensialının mahiyyəti və rolu; Əmək resurslarının nəzəri aspektləri, məşğulluq və işsizlik; Sosial sferanın maddi-texniki bazası; Sosial sferanın maliyyə resursları; Sosial sferada əmək məsrəflərinin xüsusiyyətləri | 1. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010 - 326 səh. (I fəsil, səh. 14-18)<br>2. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı 2002. (IX fəsil, səh. 112-127)<br>3. R.S. Abdullayeva, A.N. Muradov "Sosial sferanın iqtisadiyyatı" Bakı, 2009. (I fəsil, səh. 19-32).<br>4. H.B.Allahverdiyev, Ə.M.Əhmədov, K.S.Qafarov "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi" Dərslik, Bakı-2012, səh:389-406<br>5. Экономика и управление социальной сферой: Учебник для бакалавров/ Под ред. д.э.н., проф. Е.Н.Жильцова, д.э.н., проф. Е.В.Егорова. – М.: Издательско-торговая |

| | | | |
|---|---|---|---|
| | | | корпорация «Дашков и К», 2015. – 496 с. |
| **3.** | Sosial inkişafın dövlət tənzimlənməsi | Sosial inkişafın mahiyyəti və rolu; Sosial inkişafın dövlət tənzimlənməsinin əsas obyektləri; Əhalinin həyat səviyyəsi və onun qiymətləndirilməsi; Əhali gəlirlərinin tənzimlənməsi mənbələri; Sosial inkişafın qanunvericilik bazası | 1. Əlirzayev Ə.Q. "Iqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar", Bakı -1997. (II fəsil, səh. 27-38).<br>2. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı , 2010 - 326 səh. (IV fəsil, səh. 85-97).<br>3. Əlirzayev Ə.Q. "Islahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri", Bakı -2005.<br>4.H.B.Allahverdiyev, Ə.M.Əhmədov, K.S.Qafarov "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi" Dərslik, Bakı-2012, səh: 407-412. |
| **4.** | Sosial sahələrin idarəetmə mexanizmləri | Sosial sferanın idarə edilməsinin mahiyyəti; Sosial sferada təsərrüfatçılıq mexanizmi; Səhiyyə, təhsil və mədəniyyətin idarə edilməsi problemləri; Sosial standart və normativlər; Əmək münasibətlərinin tənzimlənməsi | 1.Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (VIII fəsil, səh. 190-212).<br>2.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (V fəsil, səh. 55-70).<br>3.Ə.Q. Əlirzayev "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı , 2010 - 326 səh. 4.Экономика и управление социальной сферой: Учебник для бакалавров/ Под ред. д.э.н., проф. Е.Н.Жильцова, д.э.н., проф. Е.В.Егорова. – М.: Издательско-торговая корпорация «Дашков и К», 2015. – 496 с.<br>5.http://www.e-qanun.az |
| **5.** | Əhali tələbatı və istehlakının idarə edilməsi | Tələbat və istehlakın mahiyyəti, tələbatın təsnifatı, formaları; Əhali istehlakının formalaşmasına təsir edən amillər; Əhali gəlirləri və tələbat arasında əlaqə; Əhali tələbatı və istehlakının proqnozu | 1.Əlirzayev Ə.Q. "İqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar", Bakı: "Diplomat", 1997. 208 səh. (II fəsil, səh. 25-54).<br>2.Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı , 2010 - 326 səh. (IV fəsil, səh. 103-128). |

| | | | |
|---|---|---|---|
| | | | 3.Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (II fəsil, səh. 41-58). |
| **6.** | Sosial siyasət və onun fəaliyyət dairəsi | Sosial siyasətin mahiyyəti, məqsədi və vəzifələri; Sosial siyasətin xüsusiyyətləri və əsas istiqamətləri; Sosial siyasətin modelləri və strategiyası; İnsan kapitalı və insan inkişafı indeksi; Sosial hüquq, onun formalaşması | 1.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (VI fəsil, səh. 71-90).<br>2.Əlirzayev Ə.Q. "Sosial sferanin iqtisadiyyati və idarə edilməsi" (dərs vəsaiti). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. 326 səh.<br>3.R.S. Abdullayeva, A.N. Muradov "Sosial sferanın iqtisadiyyatı". Dərs vəsaiti. Bakı, 2009. 237 səh. (III fəsil, səh. 57-68).<br>4.Инновационное развитие отраслей социальной сферы / С.А.Шавель [и др.]; под обш. ред. С.А.Шавеля; Нац. акад. Наук Беларуси, Ин-т социалогии.–Минск: Белорускаяя навука, 2017. 347 с. |
| **7.** | Əhalinin sosial müdafiəsi sistemi | Sosial müdafiə anlayışı; Sosial müdafiə sisteminin əsas istiqamət və formaları; Sosial yardım və sosial xidmət; Sosial xidmətlərin ünvanlı təqdimatı mexanizmləri | 1.Əlirzayev Ə.Q. "Sosial sferanin iqtisadiyyati və idarə edilməsi" (dərs vəsaiti). Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2010. 326 səh.<br>2.Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016.<br>3.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh.<br>4.R.S. Abdullayeva, A.N. Muradov "Sosial sferanın iqtisadiyyatı". Dərs vəsaiti. Bakı, 2009. 237 səh.<br>5.http://sosial.gov.az/ |
| **8.** | Sosial sığorta iqtisadiyyatı | Sosial sığortanın mahiyyəti və formaları; Sosial sığorta hadisəsi və sosial risklərin xüsusiyyəti; Sosial sığortanın vəzifələri; Sosial sığorta fondlarının spesifik cəhətləri; Tibbi sığorta və icbari tibbi sığorta haqqı | 1."Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu.<br>2.Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (IV fəsil, səh. 120-126).<br>3.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". |

| | | | |
|---|---|---|---|
| | | | Bakı: "Gənclik", 2002. 265 səh. (VII fəsil, səh. 91-100).<br>4.R.S. Abdullayeva, A.N. Muradov "Sosial sferanın iqtisadiyyatı". Dərs vəsaiti. Bakı, 2009. 237 səh. (IV fəsil, səh. 90-98).<br>5.http://sosial.gov.az/ |
| **9.** | İqtisadiyyatın qeyri – kommersiya sektoru | Qeyri-kommersiya sektoru haqqında anlayış; Qeyri-kommersiya sektorunun kəmiyyət xarakteristikası; Qeyri-kommersiya sektorunun xüsusiyyətləri; Qeyri-kommersiya sektorunun vəzifələri; Qeyri-kommersiya sektorunun tipləri | 1.Ə.Q. Əlirzayev "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010 - 326 səh. (VIII fəsil, səh. 307-310).<br>2.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh.(IV fəsil, səh. 38-54).<br>3.Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (VIII fəsil).<br>4.Azərbaycan Respublikasinin Dövlət Statistika Komitəsi. H.F.Bağırovun rəhbərliyi ilə "İqtisadiyyatin institusional sektorlarinin təsnifatı"Bakı – 2014. |
| **10.** | Sosial sferada sahibkarlıq fəaliyyəti | Sahibkarlığın sosial-iqtisadi mahiyyəti və rolu; Sosial sferada sahibkarlığın xüsusiyyətləri; Sahibkarlığın sosial səmərəsi. | 1. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (XII fəsil, səh. 148-155).<br>2. Ə.Q.Əlirzayev "İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: Təcrübə, Meyllər və Perspektiv istiqamətlər" Bakı-2005, Bölmə VI səh:283-318 və Bölmə IX səh:405-523<br>3. R.S. Abdullayeva, A.N. Muradov "Sosial sferanın iqtisadiyyatı". Dərs vəsaiti. Bakı, 2009. 237 səh. (II fəsil, səh. 33-42). 4. U.Ələkbərov, R.Rəhimli, Z.Həbibova, M.Həsənov "İnsan potensialına əsaslanan sosial müəssisələr Azərbaycanda davamlı innovativ inkişaf texnologiyası kimi" Bakı – Elmin inkişafı fondu-2018, (Monoqrafiya), Səh:13-162.<br>5. E.M.Hacızadə "Sosiallaşan iqtisadiyyat" Bakı – Elm - 2006, Monoqrafiya, səh:129-130. |

| | | | |
|---|---|---|---|
| **11.** | Xidmət sferasının iqtisadiyyatı və idarə edilməsi | Xidmət sferasının mahiyyəti və sosial funksiyaları; Xidmət sektorunun təsnifatı və xüsusiyyətləri; Ticarət və ictimai iaşə xidmətlərinin tənzimlənməsi mexanizmləri; Mənzil-kommunal sahələrinin planlaşması və idarə olunması; Nəqliyyat xidmətlərinin tənzimlənməsinin sosial mexanizmləri; Rabitə və məişət xidmətləri sahələrinin idarə olunması | 1. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə", Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (IV fəsil, səh. 109-120). 2. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010, səh:133,161,168,174 3. M.M.Əhmədov "Xidmət sahələrinin marketinqi" Dərs vəsaiti, Bakı-2015, səh. 8-39. 4. F.P. Rəhmanov "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (XVII fəsil, səh. 231-238). |
| **12.** | Təhsil və elmin iqtisadiyyatı | Təhsilin sisteminin mahiyyəti, məqsədi və vəzifələri; Azərbaycanda təhsilin strukturu və təşkili; Təhsilin planlaşması və idarə olunması; Təhsilin maliyyələşməsi; Elm və elmi xidmətlərin təşkili; Milli elmi-texniki prioritetlər və elmin maliyyələşdirilməsi problemləri | 1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu, 2009-cu il 19 iyun. 2. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (III fəsil, səh. 82-86). 3.Əlirzayev Ə.Q. "Iqtisadi və sosial idarəetmə: bazar iqtisadiyyatı, metodoloji prinsiplər, qanunauyğunluqlar", Bakı: "Diplomat", 1997. 208 səh. 1997. (IV fəsil, səh. 108-111). 4.Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010, səh:152-161, 173-174 5.F.P. Rəhmanov "Sosial sfera keçid iqtisadiyyatı şəraitində", Bakı: "Gənclik", 2002. 265 səh. (XIV, XV fəsillər, səh. 180-218); |
| **13.** | Səhiyyənin iqtisadiyyatı və idarə edilməsi | Səhiyyə sisteminin strukturu və səhiyyə xidmətlərinin əsas xüsusiyyətləri; Səhiyyədə dövlət siyasətinin əsas istiqamətləri; Tibb xidmətlərinin təşkilati formaları; Sağlamlıq və tibb xidmətləri; Sağlamlığın sığortalanması. | 1."Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu, 26 iyun 1997-ci il. 2. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasinin Qanunu. 3. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh.(III fəsil, səh. 59-73). 4. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə |

| | | | |
|---|---|---|---|
| | | | edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010, səh:148-152<br>5. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (XIII fəsil, səh. 156-179). |
| **14.** | Kulturologiya və rekreasiya təsərrüfatının idarə edilməsi | Kulturologiya anlayışının mahiyyəti; Kulturologiya elminin təşəkkülü; Mədəniyyət tarixinin mərhələləri; Rekreasiya fəaliyyətinin mahiyyəti; Rekreasiya kompleksində bədən tərbiyəsi və idmanın yeri | 1. Əlirzayev Ə.Q. "Sosial-mədəni sahələrin iqtisadiyyatı: inkişaf və tənzimlənmə". Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı, 2016. 220 səh. (III fəsil, səh. 73-82).<br>2. Əlirzayev Ə.Q. "Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi" (dərs vəsaiti). Bakı: «İqtisad Universiteti» Nəşriyyatı, 2010, I Fəsil, səh: 9-19<br>3. Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (XVI fəsil, səh. 219-230).<br>4. F.Məmmədov "Kulturalogiya, Mədəniyyət, Sivilizasiya" (Ali məktəblər üçün dərs vəsaiti), Bakı-2016, səh: 25-240. |
| **15.** | Turizmin iqtisadiyyatı və idarə edilməsi | Turizmin mahiyyəti və müxtəlif əlamətlər üzrə qruplaşması; Turizm bazarı və biznes; Səyahətlər bazarının seqmentləşdirilməsi | 1.Əlirzayev Ə.Q. "Sosial sferanin iqtisadiyyati və idarə edilməsi" (dərs vəsaiti). Bakı: "İqtisad Universiteti" Nəşr., 2010. 326 səh. (VII fəsil, səh. 275-306). 2.Əlirzayev Ə.Q. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı-2011, 493 səh.<br>3.Rəhmanov F.P. "Sosial sfera keçid iqtisadiyyatı şəraitində". Bakı: "Gənclik", 2002. 265 səh. (XIX fəsil, səh. 244-258).<br>4.B.Ə. Bilalov, Ç.G. Gülalıyev "Turizmin əsasları" (Ali məktəb bakalavr pilləsi tələbələri üçün dərslik), Bakı-2015, Səh 320-353. 5. Ə.Cabbarov "Turizmin iqtisadi əsasları" (Dərs vəsaiti), Bakı-2015, səh:7-210. |
| **YEKUN İMTAHAN** | | | |

## SEMİNAR-MƏŞĞƏLƏLƏR: HAZIRLIQ VƏ QİYMƏTLƏNDİRMƏ

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;

2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxıs hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqlar və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

## DƏRSƏ DAVAMİYYƏT

Təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Davamiyyət limiti üzrə yuvarlaqlaşdırma (7,5 q/b - 8 q/b) tətbiq edilmir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

## FƏNN ÜZRƏ QİYMƏTLƏNDİRMƏ *(Əyani təhsilalma forması üzrə)*

UNEC-də bakalavriat səviyyəsində təhsilin bütün illəri üzrə fənlərin attestasiyası hər biri 50 bal formalaşdıran cari və aralıq qiymətləndirmə (toplam 100 bal) əsasında həyata keçirilir. Cari qiymətləndirmə bakalavrların bilik və bacarıqlarının semestr ərzində qiymətləndirilməsi, aralıq qiymətləndirmə isə imtahan sessiyası zamanı həyata keçirilən qiymətləndirmədir.

Cari qiymətləndirmə üzrə 50 bal bakalavrların semestr ərzində topladıqları ***aktivlik və ara qiymətləndirmə*** ballarının cəmlənməsi ilə formalaşır. Aktivlik balı hər bir fənn üzrə semestr ərzində maksimal 20 bal ola bilər və bu bal tədrisi mühazirə və seminar dərsləri ilə həyata keçirilən fənlərdə seminar dərslərində alınan ballar əsasında fənlərin tədris növünə uyğun olaraq formalaşır.

Seminar dərslərində və praktik məşğələlərdə qiymətləndirmə 10 ballıq şkala əsasında həyata keçirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə hesaba alınır:

- 10 bal = 5 bal
- 9 bal = 4,5 bal
- 8 bal = 4 bal
- 7 bal = 3, 5 bal
- 6 bal = 3 bal
- 5 bal = 2,5 bal
- 4 bal = 2 bal
- 3 bal = 1,5 bal
- 2 bal = 1 bal
- 1 bal = 0,5 bal

**Qeyd:** fənnin tədris növü mühazirə, seminar və labaratoriya olduğu zaman seminar dərsi üzrə bal nisbəti EDUMAN sistemində 10 bal = 2,5 bal nisbətinə uyğun hesaba alınır:

Seminar dərslərində (qabiliyyət tələb edən fənlər istisna olmaqla) alınan ballar əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir:

B = (((b1+b2+b3+...+bn)/s)*m)/10

Burada,

B - yekun aktivlik balı;
b - seminar dərslərində alınan müxtəlif ballar;
s - semestr ərzində verilən cavabların sayı;
m - aktivlik balına ayrılan maksimal bal;
10 - bir seminar dərsində toplanan maksimal baldır.

Bakalavrlar semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 balı toplamış olur. Bu halda nəticə sistemdə (((10+10+10+10)/4)*20)/10 = 20 olaraq hesaba alınır.

Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-cı, 7-ci və s. dəfə cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu zaman müəllim ilkin olaraq həmin qrupda ümumilikdə 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında bakalavrların cavab verməsi üçün imkan yaradır.

Bakalavrlar semestr ərzində seminar dərsində 4 dəfədən az cavab verdiyi halda çatışmayan cavab sayı sistem tərəfindən “0” bal olmaqla nəzərə alınır. Məsələn, əgər hər hansı təhsilalan bu fənn üzrə semestr ərzində cəmi 2 dəfə seminar dərsində cavab verib və hər dəfə 10 bal aldığı halda onun yekun aktivlik balı hesablanan zaman həmin təhsilalanın nəticəsi (((10+10+0+0)/4)*20)/10 kimi hesablanır. Seminar dərsində ümümiyyətlə balı olmayan tələbənin aktivlik balı isə “0” bal hesab edilir.

Semestr ərzində təhsilalanların bu fənn üzrə topladığı nəticə tam olmadığı halda semestrin sonunda sistem tərəfindən adi riyazi qaydada həmin nəticələr yuvarlaqlaşdırılır (məs. 6,5 bal – 7 bal kimi nəzərə alınır).

***Ara qiymətləndirmə.*** Hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada bu fənn üzrə yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir və təhsilalanlara həmin dövrə qədər mühazirəsi tamamlanmayan mövzu üzrə yazılı cavablandırılan sual təqdim edilmir. Fənlər üzrə (alt qrup fənləri də daxil olmaqla) ara qiymətləndirmə tədris prosesi dayandırılmadan bakalavriat səviyyəsində əks dərs növbələrində, magistratura səviyyəsində isə cədvəl üzrə dərs olmayan günlərdə, zərurət yarandığı halda isə şənbə günlərində keçirilir. Şənbə günləri ara qiymətləndirmə ilə əlaqədar əmək fəaliyyəti göstərən əməkdaşlara onların

istəklərinə uyğun olaraq ara qiymətləndirmənin keçirildiyi təqvim ayı ərzində əlavə istirahət günü - "əvəzgün" verilir.

Ara qiymətləndirmənin cədvəli bir fənn - bir gün prinsipinə əsaslanmaqla ardıcıl günlər üzrə tərtib olunur və 6-cı tədris həftəsinin sonuna qədər UNEC-in saytında elan edilir.

"Sosial sahələrin iqtisadiyyatı" fənni üzrə təhsil alan tələbələrə yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı 3 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənlərin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Ara qiymətləndirmə üzrə üzrlü imtahanları (habelə olduğu halda texniki problem yaranmış imtahanlar) 11-ci tədris həftəsi ərzində eyni qaydada ardıcıl günlərdə keçirilir.

Fənlər üzrə ara qiymətləndirmə onların tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq və ya yazılı üsullardan birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilmir.

Bakalavriat səviyyəsi üzrə təhsilalanlara 75%-lik davamiyyət limiti tətbiq edilir. Fənn üzrə bu həddi aşanlar həmin fənn üzrə aralıq qiymətləndirməyə (sessiya imtahanına) buraxılmır. Davamiyyət limitini aşmayan əyani təhsilalanlar üçün həmin fənn üzrə davamiyyətə görə bal verilmir.

***Aralıq qiymətləndirmə.*** Test, yazılı, qarışıq, şifahi və ya qabiliyyət imtahanı üsullarından biri ilə hər semestrin sonunda keçirilən sessiya imtahanıdır. Bu imtahanlarda təhsilalanların qiymətləndirilməsi 50 bal üzərindən hər bir imtahan üsulu üzrə müəyyən edilən qaydada həyata keçirilir.

Aralıq qiymətləndirmə semestr ərzində keçilmiş bu fənnin bütün mövzuları üzrə tərtib edilən yazılı imtahan sualları əsasında həyata keçirilir. Bu qiymətləndirmənin cədvəli imtahanlar arasında minimum 2 gün fasilə verilməklə tərtib olunur. İmtahan cədvəli 13-cü tədris həftəsində UNEC-in saytında elan edilir.

"Sosial sahələrin iqisadiyyatı" fənni üzrə təhsil alan tələbələrə yazılı üsulunda keçirilən aralıq qiymətləndirmə zamanı bu fənn üzrə təhsilalanlara 5 sual təqdim olunur. Bu qiymətləndirmə zamanı hər bir təhsilalana fənnin xüsusiyyəti nəzərə alınmaqla müxtəlif vaxt müddətləri verilir. Bu vaxt müddətləri UNEC Elmi Şurasının qərarı ilə müəyyən edilir.

Aralıq qiymətləndirmə üzrə üzrlü imtahanları (texniki problem yaranmış imtahanlar da daxil olmaqla) sessiya bitdikdən sonra eyni qaydada ardıcıl günlər ərzində keçirilir.

Fənlərin tədrisi formasından (əyani, hibrid və ya online) asılı olmayaraq bütün imtahanlar universitetin imtahan zallarında və ya bu məqsədlə müəyyən edilən auditoriyalarda test, qarışıq, yazılı, şifahi və ya qabiliyyət imtahanı üsullarından birinin istifadə edilməsi ilə keçirilir. Bu qiymətləndirmə üzrə nəticələr kağız formasında arxivləşdirilir.

***Cari və aralıq qiymətləndirmə.*** Tədrisi mühazirə və seminar dərslərindən ibarət olmaqla həyata keçirilən fənlərdə cari qiymətləndirmə üzrə 50 balın 20 balı aktivlik balı hesabına (10 bal = 5 bal nisbətində seminar dərsində toplanan bal), 30 balı isə ara qiymətləndirmə əsasında təmin edilir. Aralıq qiymətləndirmə üzrə 50 bal - test və ya yazılı üsulda keçirilən sessiya imtahanı əsasında formalaşır.

## İMTAHAN VƏ İMTAHANA GƏDƏR TOPLANAN BALLAR ƏSASINDA SEMESTR NƏTİCƏSİNƏ GÖRƏ QİYMƏTLƏNDİRMƏ

| 91-100 bal | əla | A |
|---|---|---|
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

*QEYD:* İmtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.

*Beləliklə, Fənn üzrə kredit qazanmaq üçün tələb olunan 100 balın ayrılması*

- *50 Bal – Yekun imtahanından əvvəl qazanılan*
- *30 Bal – Aralıq imtahanı*
- *20 Bal – Praktik iş (seminar)*

*Dərsdə Davamiyyət-75% Davam Məcburidir*

*50 bal – Yekun imtahanda qazanılmışdır.*

## TƏCRÜBƏ

Bu fənn üzrə istehsalat təsrübəsi yalnız ixtisas qrupları üzrə nəzərdə tutulub.